**UOT 821.411.21**

# CƏMİYYƏTİN MƏNƏVİ PROBLEMLƏRİNİN MİSİR ƏDƏBİYYATINDA İNİKASI (YUSUF ƏS-SİBAİNİN ƏSƏRLƏRİ ƏSASINDA)

**Xumar ƏLƏKBƏROVA***

***Açar sözlər:**Yusuf əs-Sibai, Misir, müharibə, riyakarlıq, insani keyfiyyətlər, humanizm.*

**Giriş**

XX əsrin sonlarında yaşanan tarixi hadisələri, ictimai-siyasi prosesləri təbii olaraq özündə ehtiva edən müasir Misir ədəbiyyatında önəmli yer tutan məşhur yazıçılardan biri də zamanla səsləşən ədəbi yaradıcılığı ilə seçilən Yusuf əs-Sibaidir (1917, Qahirə - 1978, Nikosiya).

Ali hərbi təhsil alan Y.əs-Sibai 1947-ci ildə "Ruhlar" hekayələr məcmuəsi və "Əzrailin canişini" romanının çap olunması ilə ədəbi yaradıcılığa başlamışdır. O, Misir Yazıçılar İttifaqının sədri, ölkənin mədəniyyət naziri vəzifəsinə qədər yüksəlmiş görkəmli ictimai xadim olmuşdur (1). Tanınmış "Lotos" ictimai-siyasi jurnalının baş redaktoru, ömrünün ahıl çağlarında hətta məşhur Misir qəzeti "əl-Əhram"ın redaktoru kimi çalışmışdır. 1974-cü ildə nüfuzlu "Lotos" mükafatına layiq görülmüşdür. O, 1978-ci ildə Nikosiyada terror hücumu nəticəsində qətlə yetirilib (8).

Y.əs-Sibai ədəbi yaradıcılığının xarakterik cəhəti XX əsrin ikinci yarısında Misir ədəbiyyatında formalaşmış "yeni dalğa" ədəbi cərəyanın çalarlarının duyulması, ictimai-siyasi həyatda baş verən hadisələrin fonunda cəmiyyətdə yaşanan reallıqların müfəssəl əks olunması, obrazların mənəvi-psixoloji tərəflərinin açılmasıdır.

Bundan başqa, 50-ə yaxın kitab müəllifi olan yazıçının "Sillə və öpüşlər", "Biz yalnız deyilik", "Həyat bir andır", "Zamandan güclü", "Biz tikan əkmirik", "Riyakarlıq dünyası", "Qurtuluş adası", "Sudaşıyan öldü", "Ən mehriban insanlar", "Səkinə", "Şeyx Zuarab" və s. əsərlərində bəşəri əhəmiyyətli yeni mövzu və ideyaları qabartması əsərlərinə daim aktuallıq qazandırmış, onu Misir hüdudlarından kənarda da tanıtmışdır (5, 6, 7).

Bu mənada müəllifin xüsusən "Riyakarlıq dünyası" adlı əsəri din, dil, milliyyət və irqindən asılı olmayaraq hamını düşündürən çox maraqlı, mücərrəd süjet üzərində qurulub.

Əsərin qəhrəmanı günlərin birində insanda mənəvi keyfiyyətlər yaradan möcüzəvi toz ədviyyatlar satılan dükana gəlib çıxır və hər şey bundan sonra başlayır. Belə ki, maraq ona üstün gəlir və inanmasa belə, cəsarət tozu alıb içir. Bu tozu içincə cəsarətlənən qəhrəman bir çox qalmaqal və sərgüzəştlərə düşür.

Belə ki, öncə Fələstin müharibəsini həll etməyi düşünür: "Əsas problem - Fələstin problemidir. Fələstinin taleyini söz yox, cəsarətli və qəti addımlar həll edə bilərdi. Fələstin yaralanıb, boş sözlərlə göz yaşlarını qurudurlar. Və mən başladım düşünməyə - Fələstin məsələsini daha yaxşı necə həll etmək olar? Qərara aldım - könüllülərə qoşulacağam və əlimdə silah döyüş meydanına atılacağam.

Cəsarəti olan hər kəsin orduya könüllü yazılması borcudur. Silah və döyüşlərdə iştiraka gəlincə, bu məsələdə hər şeyi tələsmədən düşünmək lazımdır. Hansı silahı əlinə alırsan və hansı döyüşə atılırsan? Fələstində olmuş bir dostum danışırdı ki, fələstinlilərin əksəriyyəti silahsızdır və ilk döyüşlər hərbi əməliyyata yox, qəssabla quzunun çarpışmasına bənzəyirdi. Ətrafda isə heç kim yox idi, heç kim köməyə gəlmirdi. Xilas edən yox idi! Sözdən, boş vəddən başqa heç nə yoxdur!

Tanışım elə dəhşətli şeylər danışırdı ki, təsəvvür etmək belə mümkün deyil. O deyirdi ki, Fələstin ərəblərinin adi ordusu belə yoxdur. Onların malik olduğu qoşun isə hərb sənətinə təhqir sayıla biləcək maskaradı xatırladır. Onlar döyüşə yalın əllə, əvvəlcədən hazırlanmış hər hansı bir

**Filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA akad. Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*email: uxba@mail.ru*

hücum taktikası olmadan, pərakəndə, vahid komandanlıq olmadan atılırlar. Deməli, fələstinlilər silahsızdırlar, vətənlərini qoruyacaq və işğalçılara tutarlı cavab verəcək nizamlı orduları yoxdur. O zaman mənim bu silahsızların sırasına qoşulub say artırmağımın mənası var? Ölənlərin sayını bir nəfər artırmaqdan başqa, mənim cəsarətim Fələstinə nə verəcək?

Yox, cəsarətimi başqa yerə, başqa istiqamətdə sərf etməliyəm. Mən Fələstinə yalnız o halda kömək etmiş olaram ki, qüdrətli, yaxşı silahlanmış ərəb ordusu yaratmış olam, strateji planlar hazırlayam, düşmənə qarşı düşünülmüş hücum təşkil edəm" (3, səh.60).

Bu halda o, başqa qərara gəlir – cəsarətini bu işlərə cavabdeh, səlahiyyəti çatan yüksək vəzifə sahiblərini qəflət yuxusundan oyatmağa, əməli addımlar atmağa məcbur etməyə sərf edəcək. Bunun üçün Ərəb Ölkələri Liqasının Baş katibliyi yerləşən iqamətgahın qarşısına gəlir. Burada müəllif bu cür beynəlxalq, nüfuzlu təşkilat və qurumların müharibə və münaqişələrin həllinə gəlincə, gücsüz olduğunu, boş, icra olunmayan qərar və qətnamələr qəbul etdiyini, bəyanatlar səsləndirdiyini, münaqişə zonalarında həlak olan dinc sakinlərin, əsir düşənlərin taleyinə biganə yanaşıldığını çox həssaslıqla doğru ifadə edir. Yazıçı haqq-ədalətin bərpası üçün əməli addımlar atılmadığını qeyd etməklə, boş vəd və qətnamələrin, sənədlərin deyil, iş görməyin vacib olduğunu vurğulayır: "Liqa dəfələrlə toplaşıb, mühüm qərarlar qəbul edib. Zaman gedir, konkret heç nə yoxdur..." (3, səh.61)

Müəllif rəsmi şəxslərin və səlahiyyətli nümayəndələrin isə çəyirtkə kimi sərhəddən-sərhədə tullandığını, anlaşılmaz, dumanlı çıxışlar etməklə, boş bəyanatlar verdiklərini qeyd edir: "Gözlə, gözlə... top səslərinin yerinə yüksək pafoslu çıxışlar eşitmişik... sonra da nəticəsi – silahsız sakinlər yerini-yurdunu qoyub qaçmağa məcbur olublar..." (3, səh.61)

Y.əs-Sibai bütün bu fikirləri ilə beynəlxalq qanunlar keçərli olduğu halda hərb meydanlarında belə mərdlik, dürüstlük və ədalət qalmadığını, insanlığın və dəyərlərin tamamilə yox olduğunu ifadə edir, savaşların məhz riyakar, yalnız öz maraqlarını düşünən sərvət və hakimiyyət hərislərinin "əsəri" olduğunu qeyd edir. Yazıçının bu düşüncələrini oxucuya çatdıran qəhrəman sonunda cəsarətinin əvəzini ağır ödəyir. Həbs edilir və yalnız köhnə dostunun köməyi ilə həbsxanadan qurtulub evə qayıdır.

Amma başına gələnlər bununla bitmir, cəsarətli davrandığı üçün hamı onu dəli hesab etməyə başlayır. Bunun əksini sübut edə bilməyən qəhrəman anlayır ki, cəsarətli olmaq məhvə aparır, qorxaq, yaltaq, ikiüzlü olmaq daha yaxşıdır. İçdiyi cəsarət tozunun təsirinin itməsi üçün başqa çıxış yolu olmur, səxavət tozu içir. Ona görə səxavət tozu içir ki, dükanda başqa toz qalmayıb, hamı qorxaqlıq, xəyanət, riyakarlıq, yaltaqlıq, yalan, ikiüzlülük tozunu içib qurtarıb.

Amma bu da ona baha başa gəlir, əliaçıqlığı, səxavəti yenə dəlilik kimi qəbul edilir. Müəllif bununla bildirmək istəyir ki, cəmiyyətdə insani keyfiyyətlər o qədər azalıb, nadir olub ki, hətta ətrafdakı çoxluq tərəfindən dəlilik kimi qəbul edilir.

Səxavət tozunu içəndən sonra paltarını belə çıxarıb ehtiyacı olana təmənnasız verməsi qəribə qarşılanır. Evə alt paltarında qayıdanda isə arvadı onun ürəyiyumşaqlığına, pencəyini universitetə qəbul olmuş, lakin dərsə getməyə paltarı olmayan qohumuna hədiyyə etməsinə inanmır. Onun məşuqəsinin yanından bu görkəmdə qaçdığını deyərək boşanacaqlarını bildirir. Müəllif, bu azmış kimi, bəzilərinin səxavətindən, mehriban münasibətindən insanların sui-istifadə etmələrinin də acı həqiqət olduğunu vurğulayır.

Qəhrəman artıq bunun belə davam edə bilməyəcəyini görüb tozun təsiri keçənə qədər həmin insani keyfiyyətlər satılan dükanda qalmağa qərar verir. Daha sonra isə həmin insani keyfiyyətlər tozu olan kisələri sahibindən xəbərsiz Nil çayına tökür ki, hamı bu sudan içsin və Yer üzündən riyakarlıq silinsin.

Bundan sonra süjet xətti daha həyəcanlı məcraya keçir. Nilin suyundan içən camaat – varlı, kasıb, kişi, qadın, yaşlı, cavan – hamı dəyişir. Hər kəsin iç üzü açılır. Ailədaxili sirlər, qohumlar, qonşular arasında münasibətlər, siyasi səhnədə baş verən oyunlar, daha nələr, nələr real rənglərdə görünür.

Burada müəllif siyasi riyakarlıq səhnələri ilə əsəri kulminasiya zirvəsinə çatdırır. Misirdə böyük oyun gedir, siyasətçilər oyunçu, bədbəxt xalq isə tamaşaçıdır. Müəllif Misirdə siyasətin nə

olduğunu açıqlayır – ayrı-ayrı partiyalar, şəxslər hakimiyyət uğrunda bir-birilə mübarizə aparır, ölkədə keçirilən seçkilər isə əsl qurulmuş tamaşadır.

Parlament seçkilərində namizədlərdən birinin, insani keyfiyyətlər tökülmüş Nilin suyundan içən köməkçisi onun haram pullarla varlandığını, indi isə özünə deputat kürsüsü almaq istədiyini ifşa edir. Deputatlığa namizəd paşa da həmin sudan içdiyi üçün nitq söyləyərkən özünü ifşa edir. O, yüksək mənsəbə çatmaq, cəmiyyətdə söz, hakimiyyət sahibi olmaq üçün deputat mandatı arzuladığını, tək məqsədinin xalq və onun problemləri deyil, gələcəkdə daha yüksək məqamlar, hətta nazir kürsüsü olduğunu etiraf edir: "Məqsədim var-dövlətimi daha da artırmaqdır".

Bundan sonra şəhərdə çaya sehrli toz töküldüyü və epidemiya yayıldığı elan edilir. Qəhrəmanın və dükan sahibinin izinə düşərək həbs edirlər. Hakimlər və yüksək mənsəb sahibləri isə "epidemiya"nın sudan yayıldığını bilib başqa su hövzələrindən, xüsusi gətirilmiş sudan içməyə başlayırlar, ona görə zalımlıq, haqq-ədaləti tapdalamaq, xalqı heçə saymaq kimi heyvani hislər onlarda qalır. Məhkəmədə həmin hakimlər elan edirlər ki, "epidemiyanın səbəbkarlarını" edam etmək az olar. Qərar verilir ki, azad buraxsınlar və onlar bu insani keyfiyyətlərlə yaşamağın necə ağır olduğunu başa düşsünlər.

Məhkəmə binasından onlar xalqın çiyini üstündə, riyakarlığın kökünü kəsmiş əsl qəhrəman kimi çıxırlar. Məhkəmə qarşısına gəlmiş nümayişçilər isə varlılar, yüksək təbəqədən olan şəxslər üçün nəzərdə tutulmuş su hövzəsinə hücum edib oradakı suyu da "sehrlənmiş" su ilə qarışdırırlar və hekayə belə nağılvarı sonluqla bitir.

Birinci şəxsin dilindən hadisələri nəql edən Y.əs-Sibai əsərin sonunda bu hekayənin real olması arzularını ifadə edir: "Riyakarlar! Yaşadığınız torpaq da, yer də riyakarlıqla doludur. Məni qınamayın, özünüzə baxın. Görünən surəti yox, əsl mahiyyəti qınayın. Sizlərdən kim riyakar deyilsə, mənə daş atsın" (3, səh.130).

Y.əs-Sibai "Qarışqaları öldürmə" adlı əsərində də münaqişələr ətrafında gedən məkrli oyunlardan, siyasi riyakarlıqlardan, müharibənin insanlığa sığmayan vəhşiliklərindən bəhs edir. Süjet Süveyş kanalı ətrafında baş verən hadisələr üzərində qurulub, müharibə dəhşətləri, İsrail hərbçilərinin dinc əhaliyə qarşı vəhşilikləri çox real, oxucunu riqqətə gətirəcək tərzdə işlənmişdir.

Hekayət bütün müharibə dəhşətlərini gözü önündə yaşayan adi bir misirli uşaqdan necə vətənpərvər əsgər böyüməsi süjeti üzrə inkişaf edir. İsrail hərbçilərinin dinc kənd sakinlərinə qarşı vəhşi, müharibə qanunlarını aşan hərəkətləri bu uşağı mərd, cəsur vətən müdafiəçisinə çevirir. Yazıçı bu qısa hekayənin təhkiyəsi boyu da müharibənin siyasi tərəflərini, təcavüz edən və təcavüzə uğrayanın dünya siyasi dairələrində çox vaxt doğru tanıdılmamasını, ədalətin pozulması və ikili standartların isə riyakarlığın məhsulu olduğunu ədəbi ştrixlərlə parlaq ifadə etmişdir.

Necə ki, başqa bir Misir yazıçısı İbrahim Sanallah "Komitə" əsərində doğru qeyd etmişdir: "Gah bərabər hüquqların bərqərar olmasının yeganə yolunun müharibə olduğu, gah da sülh olduğu qeyd edilir... Sülh təyinatlı layihələri icra edərkən müharibədən danışırlar, sülhə çağırarkən isə, istənilən müharibəyə girməyə hazır muzdlu ordunun qurulması işlərini həyata keçirirlər" (2, səh.202).

Y.əs-Sibai də öz əsərlərində müharibələrin, insanın insana zülm etməsinin tək təkanverici çarxının pul, şəxsi maraqlar, intiqam, daha çox sərvət, torpaq, hakimiyyət qazanmaq istəyənlərin ssenarisi olduğunu diqqətə çatdırır.

Y.əs-Sibainin "Biz tikan əkmirik" əsərində riyakarlıq məişət müstəvisində, misirli qadının yaşadıqlarının fonunda tamam başqa rənglərlə açıqlanmışdır. Əsərdə Seyyidə adlı obrazın hekayəti lap kiçik yaşlarından əks olunur. Müəllif qəhrəmanının həyatını, sanki şaquli spiral üzrə təsvir edir. Seyyidə hər dəfə spiralın zirvəsinə çatıb, sonra yenidən aşağı düşür və bu, dəfələrlə təkrarlanır. Müəllif qəhrəmanının hər dəfə düşməsini isə Misir cəmiyyətində hökm sürən işsizlik, cəhalət, yoxsulluq, qadınların hüquqlarının tapdanması ilə əlaqələndirməklə yanaşı, çox doğru olaraq başqa həqiqəti də vurğulayır – Seyyidə hər dəfə düşərkən, buna səbəb qarşısına çıxan riyakar, insani dəyərlərdən məhrum insanlar olur. Yəni hərfi mənada obraz daim ayağa durur, insan kimi yaşamaq, vicdanlı, namuslu olmaq istəyərkən riyakar insanlar onu yıxır.

Körpə yaşlarından doğma anasını itirən Seyyidənin qarşısına çıxan ilk riyakar ögey anasıdır və həyatı boyu bu qadının pula hərisliyi, əxlaqsız həyat tərzi Seyyidəni izləyir. Atasının ölümündən sonra atasının dostunun ailəsinə sığınan qızcığaz riyakarlığın daha yeni üzləri ilə tanış olur və bu tanışlıq ömrünün sonuna qədər onu nail olduqlarından məhrum edir, qalxdığı yerdən çəkib salır. Onu himayə edən ailənin oğlu Abbasın təşviqi ilə oğurluğu özünə "həyat tərzi" seçir, "bədənini satmaqla asan yolla pul qazanmağı" öyrənir. Əsər boyu Seyyidə istər halal, istər haram yolla qazandıqlarını itirə-itirə yaşayır. Həyatda qazandığı yeganə ən dəyərli varlıq olan oğlunu belə itirir (4).

Oğlu üçün gecə-gündüz işləyən, cəfakeş, namuslu biri olmağa çalışan, övladına haram tikə yedizdirməyib halal zəhmətlə onu böyütməyə qərar vermiş ana obrazı Seyyidənin təkamülü, müəllifin qələbəsidir. Lakin təəssüf ki, insani dəyərlərin yox olduğu riyakar Misir cəmiyyətində bu, çox çətindir və əsərin sonunda Seyyidə, sanki oğlunu itirməklə bütün günahlarının cəzasını ən ağır şəkildə ödəmiş olur.

Lakin müəllif bu riyakarlıq, əxlaqsızlıq dolu dünyanın yaxşı insanlardan xali olmadığını da göstərməyi unutmur. Cəmiyyətdə bu pisliklər çamurunda daim zəiflərə, kimsəsizlərə əl uzadan, haqsızlığa, şərə qarşı duran xeyir var. Və oğlunun ölümündən sonra hər şeyini, ümidini belə itirən Seyyidəni müəllif yenidən bu həyata həmin yaxşı insanların əli ilə qaytarır. Seyyidə bir zamanlar ona çox yaxşılıqlar etmiş, dəfələrlə düşdüyü bəlalardan, həyatın dibindən çəkib çıxarmış ailəyə qayıdır, onlara sığınır və ömrünün sonuna qədər təmənnasız xidmət edib gözlərini əbədiyyətə yumur, bu dünyanın iztirablarından qurtarır.

Beləliklə, Y.əs-Sibainin yaradıcılığına qısa təhlilli baxışla nəzər salarkən əsərlərində real Misir cəmiyyətində yaşanan riyakarlıqların ən müxtəlif müstəvilərdə ən fərqli təzahürlərini görmək mümkündür. Və yazıçı bütün əsərlərində bəşəriyyətin yaşadığı savaş və münaqişələrin, humanitar fəlakətlərin, haqsızlıq, aclıq, səfalət və yoxsulluğun, acı və göz yaşlarının riyakarlıqdan doğduğunu ifadə etmişdir.

## ƏDƏBİYYAT

1. Ватолина Л. Современный Египет. Москва, Ленинград, 1994.
2. Саналлах Ибрагим. Комитет. Москва, 2010.
3. Юсуф Ас-Сибаи. Земля лицемерия.«Иностранная литература» № 6, 1973.
4. Юсуф Ас-Сибаи. Мы не сеем колючек. М.: Прогресс, 1973.
5. Юсуф Ас-Сибаи. Водонос умер. Ташкент: Изд-во художественной литературы им.Гафура Гуляма, 1968.
6. Юсуф Ас-Сибаи. Добрейшие люди. М.: Правда, 1972.
7. Юсуф Ас-Сибаи. Остров спасения. «Иностранная литература» № 10, 1970.
8. https://www.livelib.ru/author/352183-yusuf-assibai

## *РЕЗЮМЕ*

***Хумар Алекперова***

### *Отражение нравственных проблем общества в египетской литературе (на основе произведений Юсуфа ас-Сибаи)*

***Ключевые слова***: *Юсуф Ас-Сибаи, Египет, война, лицемерие, человеческие качества, гуманизм*

Юсуф ас-Сибаи – один из самых известных представителей египетской литературы, чье творчество всегда было созвучно духу времени.

Творчеству писателя характерны черты литературного течения «новой волны», сформировавшегося в египетской литературе во второй половине XX века, детальное отражение реалий общества на фоне событий общественно-политической жизни страны, раскрытие моральных и психологических аспектов образов.

Благодаря вниманию Юсуфа ас-Сибаи к новым темам и идеям, имеющим глобальное значение, его произведения всегда актуальны и нашли признание также за пределами Египта.

В статье рассмотрено творчество Юсуфа ас-Сибаи и глубоко проанализированы пороки египетского общества, нашедшие отражение в его произведениях. В результате делается вывод о том, что, войны и конфликты, гуманитарные катастрофы, несправедливость, голод и нищета, боль и слезы в обществе порождаются таким пороком как лицемерие.

## *SUMMARY*

***Khumar Alakbarova***

### *Various Manifestations of Spiritual Problems of Society in Egyptian Literature (based on the works of Yusuf al-Sibai)*

***Keywords***: *Yusuf as-Sibai, Egypt, war,hypocrisy, human qualities, humanism*

Yusuf al-Sibai is one of the most famous representatives of Egyptian literature, whose works have always been in tune with the spirit of the times.

The writer’s works are characterized by the perception of the shades of the literary movement of the “New Wave” that appeared in Egyptian literature in the second half of the 20th century, a detailed reflection of the realities of society against the background of events in the country’s socio-political life, and the description of the moral and psychological aspects of images.

Due to Yusuf al-Sibai’s attention to new themes and ideas of global significance, his works are always relevant and have found recognition outside Egypt as well.

The article examines the work of Yusuf al-Sibai and extensively analyzes the manifestations in various aspects of hypocrisy in real Egyptian society, which are reflected in his works. As a result, it is concluded that, according to the Egyptian writer, expressed in all his works, wars and conflicts, humanitarian disasters, injustice, hunger and poverty, pain and tears are generated by hypocrisy.